

# Sevgi Sağaldır

GÜLƏR NİZAMİQIZI

qanun nəşriyyatı



# SEVGİ SAĞALDIR

*Hər insanın həyatında bir dönəm olur; sanki üzərindən böyük bir qara bulud keçir. Amma buludların arxasında bir işıq var və bəzən yalnız sevgi o işığı tapa biləcək gücü verir. Amma... Sevgi hər zaman sağaldırmı? Ürək – ən ağır yaraları bağlaya bilən tək şey olur. Amma necə? Hansı sevgi bu qədər güclüdür? Bir yara nə qədər sağalsa da izi qalır. Bəs sevgi, bu izləri necə silir?*

**Gülər Nizamiqızı  SEVGİ SAĞALDIR**
Bakı, Qanun Nəşriyyatı, 2025, 112 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 06.03.2025

| | |
|---|---|
| Mətn dizaynı: | Sabina Aydin |
| Dizayn: | Leyla İlqar |
| Qapaq dizaynı: | Kənan Eynullayev |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

AB 022051 / İN 0688

© Qanun Nəşriyyatı, 2025
© Gülər Nizamiqızı, 2025

# BİRİNCİ HİSSƏ

“Sevginin toxunduğu hər yara, bir gün çiçək açacaq”.

Mənim həyatım heç də mənim istəyimlə formalaşmadı. Həyatımda hər şey müəyyən qaydalara, sərt qanunlara tabe idi. Dört uşağın içində mən, ailənin qayğıları ilə böyüyən, həmişə "yaxşı qız" olmaq məcburiyyətində olan idim. Hər səhər o, təmizlənməli olan evin hər küncündə mənim əlimi axtarırdı; və hər zaman anama baxaraq, onun sözlərinin necə həmişə gerçəkləşdiyini hiss edirdim. O, bəzən sərt, bəzən qapalı, amma heç vaxt sevdiyini açıq göstərməyən qadın idi. Atam kənddə hörmətli, hər zaman evin başçısı, hər sözünün mütləq olduğunu deyən bir kişi idi. Amma heç vaxt mənə "Firuzə, nə istəyirsən?" demədi. Mən sadəcə olaraq hamının gözləntilərini yerinə yetirmək üçün yaşadım. Həyatımda öz xəyallarım, arzularım vardı, amma bunlar heç vaxt vacib deyilmiş kimi hiss olunurdu. Mən yalnız bir şey istəyirdim: Sevgi və təbiətindəki qayğı və istək... Sevmək və sevilmək istəyirdim. Ailəm olsun, bir nəfər məni anlayan, mənim iç dünyama daxil olan, mənə "gözəl" deyən bir nəfər... Amma bu, mənim deyil, ailəmin seçimi ilə baş verdi.

Bir gün hər şey dəyişdi. Amma nə mənim istəyimlə, nə də mənim arzumla. Mənə seçdikləri həyatın içində, özümə bəzən yer tapmaq çətin olurdu. Ailəm mənim həyatımın istiqaməti ilə bağlı qərar verdi və mən, sadəcə, onlara qarşı çıxmağa cəsarətim olmadığı üçün bu seçimi qəbul etmək məcburiyyətində qaldım.

Günlər keçdikcə, həyatımda kiçik dəyişikliklər hiss edilməyə başladı. Bir gün, Afət xanımın gəlişi ilə hər şey daha da fərqli oldu. O gələndə, həyətdə işlər görürdüm, o isə evə qalxmışdı. Heç nə başa düşmədim. Amma sonra anamla atam arasında bir söhbətin şahidi oldum, anam atama deyirdi ki, “Artıq Firuzənin də ailə qurmaq vaxtıdır”. Hər zaman olduğu kimi, anam yenə də bizim yerimizə qərar vermək istəyirdi. Onun idarəedici və təkbaşına qərar verən təbiəti, həyatımda hər zaman bir maneə olmuşdu. Lakin, indi bir şey dəyişirdi...



Bu yaşa qədər heç sevdiyim oğlan olmayıb. Mənə yaxınlaşıb sevgi etiraf edən oğlan da olmayıb. Amma sevilməyəcək qız da deyildim. Yəqin mənim də qismətim beləymiş. Həmişə mənə maraqlı olmuşdu, necə hissdir sevgi?

Sevilmək necə duyğudur? Həmişə istəyirdim mənim də bir sevgilim olsun. Məktəbdə oxuyanda qızların sevgililəri vardı. Onlara çox maraqla baxırdım. Anamın bizi hər gün məktəbə yola salanda eyni sözü təkrarlayırdı: “Başıaşağı gedib, başıaşağı gəlin”. Uşaq düşüncəsiylə elə bilirdik, anamızın sözündən çıxsaq, ona nəsə olar. Anam çox sərt qadın idi. Məktəbdə müəllimə işləyirdi. Şagirdlərlə bizim aramızda heç vaxt fərq qoymurdu. Bir anlıq xəyala daldım, sevinmişdim. Deməli, mənim də bir ailəm olacaqdı? Sevəcəkdim, məni sevən biri olacaqdı. Bu hissləri yaşamaq üçün çox səbirsizlənirdim. Afət xanımın Ömər adlı subay bir oğlu var idi. Ömərdən başqa bir qızı vardı, o da ailə qurmuşdu. Bu söhbətin üstündən bir neçə gün keçmişdi. Nə anam, nə də atam bu barədə heç nə danışmadı. Bir gün anam işdən gələndən sonra məni çağırdı: “Firuzə, bura gəl”. Həmin an çox həyəcanlanmışdım. Tez tələsik anamın yanına keçib divanda oturdum.

– Nə olub, ana? Nəsə problem var?

– Yox, mən səninlə bir məsələ ilə bağlı danışmalıyam. Sənin artıq ailə qurmaq vaxtındır. Elçi çıxıb və atanla mən danışıb maraqlanmışıq. Bizə

uyğun ailədir, həmçinin oğlan da ağıllı, tərbiyəlidir, – mən səssizcə anamı dinləyirdim. Bilirəm ki, anam və atam məni məsləhətli bir ailəyə verir. Onların sözündən çıxa bilməzdim. Birdən anam səssizliyi pozdu:

– Firuzə…

– Bəli, ana.

– Heç soruşmursan kimdir?

– Düşündüm, özün deyərsən.

– Hə, Afət xalanın oğlu sənə elçi düşüb.

– Siz necə məsləhət görürsünüz, elə də olsun, ana.

Bu söhbətin üstündən üç-dörd gün keçmişdi, elçilər gəldilər. "Həri" verildi. Hər şey çox tez baş verdi. Nişanıma görə mənə geyim və üzük almaq üçün Afət xala və Ömər bizə gəlib məni aparmalı idilər. Amma anam icazə vermədi.

– Olmaz, mən gedəcəyəm, el-camaat nə deyər? Hələ üzüklər taxılmayıb. Nə bilirsən, o səni alacaq, ya yox?

Həmişəki kimi heç nə demədim, susdum. Anam Afət xala ilə getdi. Həmin günə qədər həyəcanlanmışdım ki, Ömərlə tanış olub birlikdə gəzəcəyik. Lakin anam imkan vermədi. Hər şeyi anam mənim əvəzimə qərar verirdi. Nəhayət, nişan günü gəlib çatdı. Gözəl bir məclis qurulmuşdu. Qohumlar, qonşular, anamın iş yoldaşları hamısı gəlmişdi. Budur, oğlan evi də gəldi. Ömər əlində gül içəri daxil oldu. Hündürboylu, dolu, dəniz mavisi gözləri,